# Dünya miqyasında nadir əməkdaşlıq nümunəsi

Azərbaycan və Türkiyənin birgə atdığı addımlar bu birliyin, həmrəyliyin əbədi və sarsılmazlığını, iki dost ölkənin daim bir yerdə olduğunu və bundan sonra da olacağını dünyaya çatdırır. Sentyabrın 25-də Azərbaycan və Türkiyə Prezidentlərinin Naxçıvanda görüşü, imzalanan sənədlər, mətbuata birgə bəyanatları münasibətlərimizdə yeni səhifə kimi dəyərləndirilir. Zəngin tarixə malik, biri-biri ilə qırılmaz tellərlə bağlı olan iki dost ölkənin yüksələn xətlə inkişaf edən əlaqələrini Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan belə xarakterizə etdi: "Prezident seçkilərindən sonra ilk səfərimi iyun ayında Şimali Kipr Türk Respublikası ilə birlikdə Bakıya etmişdim. Bu dəfə sizinlə Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda birlikdə olmaqdan böyük məmnunluq duyuram…- Türkiyə-Azərbaycan əlaqələri dünyada tayı-bərabəri olmayan müstəsna səviyyədədir. "Bir millət, iki dövlət" şüarı çərçivəsində əlaqələrimizi və əməkdaşlığımızı bütün sahələrdə gücləndirmək üçün fəaliyyətimizi davam etdiririk. İlham qardaşımla imzaladığımız Şuşa Bəyannaməsi əlaqələrimizi müttəfiqlik səviyyəsinə yüksəldən bir dönüş nöqtəsidir.

Dünya daim bu birliyin fonunda qardaşlığın, dostluğun nümunəsini görür. Tarixi Zəfərimiz əlaqələrimizin daha da möhkəmlənməsində stimulverici amil oldu. Dövlət başçısı İlham Əliyevin elə bir çıxışı, müsahibəsi yoxdur ki, qardaş ölkənin 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycana dəstəyindən bəhs etməsin. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil" mesajı qardaşlığımızın dünyaya nümayişi oldu. Qardaş ölkə sonadək ölkəmizə mənəvi və siyasi dəstəyini göstərdi, eyni zamanda, tarixi Zəfərimizdən sonra sahibinə qovuşmuş torpaqlarımızda atılan hər bir addımda Azərbaycanın yanındadır.

Türkiyə Prezidentinin yalnız paytaxt Bakımıza deyil, bölgələrimizə səfər etməsi, orada görülən işlərlə yaxından tanış olması, gördüyü inkişafdan, tərəqqidən keçirdiyi xoşbəxtik hissini xüsusi vurğulaması iki qardaş ölkənin Prezidentlərinin şəxsi münasibətlərinin əlaqələrimizin inkişafında oynadığı rola aydınlıq gətirir: "Səfər çərçivəsində Prezidentlər Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında, İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimində iştirak etdilər. Azərbaycan-Türkiyə birliyini daha da möhkəmləndirəcək sənədlər imzalandı. Dövlət başçısı İlham Əliyev mətbuata bəyanatında yaxın günlərdə Naxçıvanda Türkiyə və Azərbaycanın vəzifəli şəxslərinin, beynəlxalq təşkilatların iştirakı ilə Türkiyə-Azərbaycan III Enerji Forumu keçiriləcəyini də bildirdi.

Azərbaycan və Türkiyənin birgə həyata keçirdikləri enerji layihələri dünyanın enerji təhlükəsizliyinin təminatında əhəmiyyətli rol oynayır. Regional çərçivədə başlanan əməkdaşlıq illər keçdikcə beynəlxalq miqyas aldı. Bugünün əsas çağırışları sırasında yer alan bərpa olunan enerji mənbələrinə investisiyaların yatırılması məsələsini nəzərə alsaq əminliklə deyə bilərik ki, bu forumun nəticələri uğurlu olacaq. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Naxçıvanın qazı, nefti olmasa da, günəşi var. Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı böyük planlar var. Bu planlar gerçəkləşərsə, Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər. Gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində yaşıl enerji ixracı da mümkün olacaqdır.

Dövlət başçısı İlham Əliyev mətbuata bəyanatında Azərbaycanın bu günlərdə həyata keçirdiyi lokal antiterror tədbirlərindən bəhs edərək qardaş ölkənin dəstəyini xüsusi vurğuladı: "Əziz qardaşım, bu hadisə baş verəndə Siz Amerikada, Nyu-Yorkda idiniz, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında iştirak etmişdiniz və orada dünyanın ən ali kürsüsündən Azərbaycan dövlətinin maraqlarını ifadə edən bəyanatlar vermişdiniz, ədalətli bəyanatlar vermişdiniz, tamamilə beynəlxalq hüquqa əsaslanmış bəyanatlar vermişdiniz: Qarabağ Azərbaycan torpağıdır. Bu, həm həqiqətdir, eyni zamanda, beynəlxalq hüquqa tam uyğundur. Eyni zamanda, Türkiyə tərəfindən göstərilən növbəti qardaşlıq addımıdır.

Azərbaycan və Türkiyə daim ədalətin və beynəlxalq hüququn yanındadır. Bütün məsələlərin bu prinsiplər əsasında həllinə səy göstərirlər. Onların müştərək maraqları ondan ibarətdir ki, bölgədə sülh, əmin-amanlıq olsun, müharibələr olmasın, ölkələrin ərazi bütövlüyü təmin edilsin. Cənab İlham Əliyev bu məqamı xüsusi qeyd etdi ki, qardaş ölkənin Azərbaycana həm İkinci Qarabağ müharibəsi zamanı, həm ondan əvvəl, həm də ondan sonra göstərdiyi dəstək məhz bu məqsədə çatmaq üçün önəmli amildir.

Azərbaycan və Türkiyə bütün sahələrdə əlaqələrinin yüksələn xətlə inkişafında maraqlı olan dövlətlərdir. İmzalanan sənədlər də bunu təsdiqləyir. Münasibətlərdə yeni səhifə açan və artıq imzalanmasından iki ildən artıq vaxt keçən Şuşa Bəyannaməsinin bugünkü əlaqələrimizdə rolu böyükdür. Həmçinin Türkiyədən Naxçıvana qaz kəmərinin inşası ilə bağlı işlərə start verilməsi, Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanması özündə bütün məqamları ehtiva edir.

Ümumiyyətlə Türkiyə ilə Azərbaycan arasındakı tarixi, mənəvi, ortaq etnik köklərə bağlılıq, oxşar dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın həmrəyliyi dünya miqyasında nadir əməkdaşlıq nümunəsidir.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ"**

# Sən kimə gərəksən, mən kimə gərək...

**Həsrətli baxışlar**

- Yarım saatlıq gəlmişəm,ana! Xidmətimlə bağlı bir tapşırığım var idi. Düşündüm ki, sizləri də görüm; atamı, səni, qardaşlarımı, əmisinin mələyini öpüm, qoxlayım...



Süfrə açıldı-yemək daddı, çay içdi-həsrət dolu baxışlarla doğma ocağının - evin , həyətin hər guşəsini "acgöz" baxışlarla süzdü. Hər kəsə doyunca baxmaq istəyirdi, amma gözü saatda idi, çünki yarım saatlıq gəlmişdi...

Tamerlan o yarım saatlıq görüşdə kəndinin yollarını, dağlarını, düzənini, bağ-bağçalarını; hər döngəni, qarşılaşdığı hər insanı və onlardan duyduğu doğmalıq hissini qəlbinə, göz yaddaşına üreyinin gözü ilə, həm də həsrət dolu bir baxışın "qələmiylə" yazırdı: birdən... bir daha görmərəm deyə. Əzizləriylə görüşdükcə "istisini", can qoxusunu canına çəkirdi,doyası kimi... həsrət qoxusunu özündən uzaqlaşdırırmış kimi...

Qəlbindəki sevgi işığını qoruya-qoruya... sevgi nağılına çevirə-çevirə... arzularını üç nöqtəyə "çevirməmək" arzusu ilə reallığın "cığırı" ilə ayrıldı kəndindən, do-



ğulduğu torpaqdan , əzizlərindən.

O görüşdən 3 gün sonra qəfil xəbər ailənin gündüzünü qatı qaranlığa çevirdi. Bəd xəbərlər insanı qılınc kimi kəsər. Nə qədər özündən uzaqlaşdırmaq istəsən də mümkünsüz...

Uşaqlıqdan torpağa bağlı, elinə-obasına, ocağına məftun biri idi. Ata-anasının halal və min bir zəhmətlə qazandığı çörəyin qədr- qiymətini bilərdi. Onların ocağını həmişə yanar etmək, övladları üçün hər çətinliyə sinə gərməsi onun uşaq yaddaşına həkk olunmuşdu. Ata ocağının istisində isindikcə, didərgin, qaçqın yaşayanların dədə-baba ocaqlarını məcburən qoyub gələnlərin acısını düşünür və hər kəsin öz doğma obasında məskunlaşmasını istəyirdi. Elə bu istək də onun ömür yolunun, alın yazısının bir cığırı oldu sanki. Xalqının azad yaşaması, ölkəsinin ərazi bütövlüyü, yurdlarından didərgin düşənlərin öz ocağının başına yığışması onun üreyinin istəyi idi. Ata ocağı Vətəndir! Onu qorumaq isə vətən oğullarının müqəddəs vəzifəsidir.

*Babamdan qalıbdır bu ocaq bizə*
*Bir ocaq sönəndə bir tifaq itir,*
*Bir ocaq söngüsü qeyrətimizə*
*Bir düşmən nəslinin qəhqəhəsidir.*

*Apar bu ocağı evində yandır,*
*O közdən qor alır,*
*közdən odlanır,*
*Kişi yer üzündə od qoruyandır,*
*Kişi ona görə kişi adlanır...*

Sanki ölməz şairimiz Məmməd Araz Tamerlanın düşüncələrini bilib və bu şeri onun ürək arzularına istinadən yazmışdır.

Tamerlan elə bu düşüncələrin reallığa qovuşması arzusuyla da öz həyat yoluna başladı. Bu halal zəhmətə və bu zəhmətin bac aldığı ata ocağına olan dəyər- qiyməti idi. Vətən isə hər kəsin doğulduğu məkandan, böyüdüyü ocaq və eldən başlayır.

**Zəhmət, hünər övladları**

Tüntül kəndində hər kəs İkram Yunusovun ailəsini zəhmətkeş, halal çörəyini alın təri və əllərinin qabarı ilə qazanan, ailəsinin, övladlarının firavan və xoşbəxtliyi üçün çalışan insanlar kimi tanıyırdı. Ailədə 3 oğul bala böyüyürdü: Kamran, Tamerlan, Cavidan . Ağıllı və vətənpərvər, mənəviyyatca zəngin övladlar idi hər üçü.

Tamerlan ailənin 2-ci övladı idi. O 1997-ci ilin 28 noyabrında (həm də anasının doğulduğu gün) Tüntül kəndində dünyaya göz açmışdı. Elə həmin kənddə də kənd məktəbində orta təhsil almışdı. 2016-cı ilin aprel ayının 8-də həqiqi hərbi xidmətə başlamışdır. O, hərbi xidmətini Gəncədə, sonralar isə Murovdağda "N" saylı hərbi hissədə keçirmişdir. 2017-ci ildə hərbi xidmətini başa vurmuş, kəndə qayıtmışdır. Kənddə bir neçə ay təsərrüfat işlərində çalışmışdı. Hərbçi olmaq ,hər çətinliyə rəğmən bu sahədə çalışaraq Vətənin müsəlləh əsgəri olmaq onun arzusu idi. Elə bu arzu ilə də yenidən hərbçi kimi fəaliyyətə başlamışdı. O, Hadrutda, Beyləqanda, Füzulidə xidməti vəzifəsini yerinə yetirmişdir.

2020-ci ildə başlanan 44 günlük 2-ci Vətən müharibəsində Şuşa, Xocavənd, Hadrut, Füzuli və Daşaltı uğrunda gedən döyüşlərdə iştirak etmiş, igidliklə döyüşmüşdür. Döyüşlərdə fərqləndiyinə görə Tamerlan Soltanbəyli kiçik çavuş rütbəsi almış, Şuşanın, Xocavəndin, Füzulinin azad olunması uğrunda, "Vətən müharibəsi iştirakçısı" və s. medallarla təltif olunmuşdur. Döyüşlər zamanı başından və bədənin müxtəlif hissələrindən yaralar almış, müalicə olunub sağalan kimi yenidən cəbhə bölgəsinə qayıtmışdı.

**(Ardı 6-cı səhifədə).**